# Novator alim - şəfqətli qadın

**Sevib-seçdiyi, ömrünü həsr etdiyi peşəsi ilə, yüksək vətəndaşlıq, mərhəmətli keyfiyyətləri ilə daim xalqın yaddaşında yaşayan şəxsiyyətlər hər zaman qürur hissi ilə anılır. Cəmiyyətin içində seçilmişlər, öz varlığı ilə öz millətini şərəflə yaşadan insanlar var. Bu şəxslər Azərbaycan qadını adını zirvələrə yüksəltməklə tarixdə daha dərin izlər buraxmağa müvəffəq olurlar. Bu cür qadınlar analığa, siyasi xadimliyə layiqdirlər. Məhz belə qadınlardan biri də akademik Zərifə xanım Əliyevadır. Onun həyatı, fəaliyyəti insanlar üçün həqiqətən də bir örnəkdir. Onun üçün insanlara şəfqət həyatının amalına çevrilmişdir. Zərifə xanım novator və istedadlı alim, bilikli və bacarıqlı həkim, tanınmış ictimai xadim, gözəl və qayğıkeş ana kimi yaddaşlara həkk olunub. O, təmkinli, səbrli, dözümlü qadın olaraq biliyi, bacarığı, müdrik söhbətləri, səmimi və xoş rəftarı, hörməti və mərhəməti ilə hamının rəğbətini qazanmışdır. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zəngindir.**



Zərifə xanımın xoş və gülümsər çöhrəsindən yağan nur onun mənalı və şərəfli ömür yolunun göstəricisidir. Hər yerdə onu mehribanlıqla, hərarətlə qarşılayıblar. İnsanlarla son dərəcə mədəni və səmimi davranışı, müdrik söz-söhbətləri, kübarlığı ilə ətrafındakılarda inam oyatmışdı. Çünki özünə qarşı son dərəcə tələbkar olan Zərifə xanım sözünün üstündə durmağı bacarır, onun məsuliyyətini daşıyırdı. Təsadüfi deyil ki, o, işlədiyi sahələrdə çoxlu sayda davamçılarının yetişdirilməsinə nail olmuşdu.

Zərifə Əliyeva qayğıkeş insan, mehriban ana, vəfalı, sədaqətli həyat yoldaşı, səmimi dost olmuşdur. Bu da təbiidir, çünki o, akademik Əziz Əliyevin ailəsində tərbiyə almışdı. Bu ailənin təməli xeyirxahlıq, nəciblik kimi xüsusiyyətlər və milli dəyərlər üzərində qurulmuşdu. Əziz Əliyev və Leyla xanım Abbasova Azərbaycanın çox qədim və əbədi torpağı olan İrəvan mahalında dünyaya göz açmışdılar. Ermənilərin azərbaycanlılara qarşı o zamankı soyqırım siyasəti nəticəsində Əziz Əliyevin də ailəsi narahat bir həyat yaşamışdır. Ona görə də ailəsi ilə Naxçıvanın Şahtaxtı kəndinə köçmüş və Zərifə xanım da orada anadan olmuşdu. O, çox nəcib ailədə, söz, sənət adamlarının əhatəsində böyümüşdür. Elə məhz bu nümunəvi ailədə göz açmaqla o, müsbət keyfiyyətlərə yiyələnmək imkanı əldə etmişdir. Zərifə Əliyeva atasının ömür yolunu özünə əsl məktəb kimi seçmiş, onun yolunu layiqincə getməyə çalışmışdır. Əminlik hissi ilə demək olar ki, buna nail ola bilmişdir. Zərifə xanımın dünyaya göz açdığı ailə Azərbaycanın əsil-nəcabətli, soylu-köklü ailələrindən biri idi. Elm və mədəniyyət xadimlərinin çoxu onun ata evinin daimi qonaqları olurdu. Əziz Əliyevin ailəsində uşaqların tərbiyəsinə böyük diqqət yetirildiyini sonralar şahidlərin hamısı xüsusi vurğu ilə qeyd ediblər. Ötən əsrin görkəmli elm, mədəniyyət xadimləri Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov, Bülbül, Səməd Vurğun və digər şəxsiyyətlərin Əziz müəllimin ailəsi ilə dostluğu və mənəvi yaxınlığı onun uşaqlarının tərbiyəsinə, dünyagörüşünə müsbət təsir göstərmişdir. Bu ailənin övladları ilk növbədə halal yaşamalı, mükəmməl təhsilə yiyələnməli, cəmiyyətdə hörmət qazanmalı idilər. Zərifə xanımın və iki qardaşının səhiyyə sahəsini, xüsusən də, oftalmologiya elmini seçməsində atasının və ailəsinin böyük təsiri olmuşdur.

Zərifə xanım bütün Azərbaycan qadınlarının malik olduğu keyfiyyətlərin özündə bir növ ümumiləşdirilmiş şəkildə daşıyıcısı idi. O, Azərbaycan qadınının nələrə, hansı fədakarlıqlara qadir olmasını göstərirdi. Görkəmli alim ünsiyyətdə nəzakətli və mülayim idi, eyni zamanda, öz prinsiplərini müdafiə edərkən inadkarlığı və mübarizliyi də üzə çıxırdı. İnsanlarla münasibətlərdə kimin səmimi və ya qeyri-səmimi olduğunu dərhal hiss edirdi. Zərifə xanım o qədər düşüncəli insan idi ki, onun söhbətlərindən sonra, yaxud müəyyən mövzuda məsləhətləşdikdən sonra insan sanki rahatlıq tapırdı. Bu ağıllı qadın həmişə çalışırdı ki, bütün insanların dərdinə əlac tapa bilsin, onların əlindən tutsun. Əgər hansısa problemin həlli ondan asılı deyildisə də, çalışırdı ki, kömək olmaq istədiyi insanları aidiyyəti şəxslərə, yaxud yerlərə istiqamətləndirsin. O, akademik, professor, elm xadimi, müxtəlif mükafatlarla təltif olunmasına baxmayaraq, heç vaxt özünü sadə insanlardan ayırmazdı.

Zərifə xanımı yaxından tanıyanlar öz xatirələrində hər zaman qeyd edirdilər ki, o, çox ünsiyyətcil xanım idi, onun danışığında səmimilik, mülayimlik müşahidə olunurdu. Kimsənin xətrinə dəyməyi sevməzdi. Hətta dəvət edildiyi tədbirlərdən imtina etməz, canla-başla iştirak edərdi. Onun həyat enerjisi o qədər güclü idi ki, bundan yan keçmək olmazdı. Zərifə xanım həm gözəl dost, həm də yaxşı sirdaş idi. Daim dostlarının yalnız yaxşı deyil, pis günlərində də yanlarında olur, dərdlərini öz dərdi kimi qəbul edirdi. Bir çoxları bu nəcib insanı həkim və elm xadimi ilə yanaşı, yaxşı bir dost kimi də xatırlayır. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi.

Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Əhatəsindəkilər onu heç zaman əsəbi, qəzəbli görmədiklərini deyərdilər. O, həmişə gülərüz, xeyirxah idi.

Tarixi şəxsiyyətin həyat yoldaşı olmaq, onunla həyat yolunu birgə keçmək o qədər də asan məsələ deyil. Onlar həyata baxışları, hadisələri öncə görmək qabiliyyətləri ilə seçilən insanlardır. Onun yanında olan insan da gərək çox böyük tələblərə cavab versin. Zərifə xanımın həyat kitabı çox parlaq səhifələrlə zəngindir. Elmi və ictimai fəaliyyətinin çox geniş olmasına baxmayaraq, Zərifə xanımın həyatda ən ağır məsuliyyəti ümummilli lider Heydər Əliyev ilə ailə qurması idi. Ulu öndər Heydər Əliyev demişdir ki, “o mənə sadəcə ömür-gün yoldaşı deyildi. O mənə dost, dayaq idi. İşimin çətin olduğu bütün dövrlərdə ailəm haqqında çox rahat düşünürdüm. Çünki mənim Zərifə Əliyeva kimi sədaqətli, cəfakeş, fədakar ana olan ömür-gün yoldaşım var idi”. Ən ağır, ən təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını tək qoymamış, onun dayağına çevrilmişdi.

Akademik Zərifə Əliyevanın adı və elmi-ictimai fəaliyyəti zəriflik və işıqla bağlıdır. Böyük elm xadiminin keçdiyi ömür yolu, yazdığı qiymətli əsərlər yüksək insanlıq meyarlarına və müqəddəs həkimlik adına parlaq nümunədir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə nur saçmışdır. Onun işıqlı fəaliyyəti qaranlıq dünyalara nur bəxş edirdi. Alimin elmi nailiyyətləri beynəlxalq aləmdə də müzakirə mövzusuna çevrilmişdi və Azərbaycan səhiyyəsinin incəliklərini dünyaya tanıtmışdır. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Tibb Elmləri Akademiyası mükafatı laureatı, Sülhü Müdafiə Komitəsinin üzvü, “Bilik” Cəmiyyəti Rəyasət Heyətinin üzvü xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir.



Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun cərrah əlləri təmasda olduğu hər şeyə əlac olurdu, eyni zamanda bu əllərdə qadın əməyinin izlərini də sezmək mümkün idi.

Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliklə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə respublikanın səhiyyəsi üçün böyük əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı müalicəvi və profilaktik tədbirlərin təşkilində fəal iştirak edir, bu xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə işi aparırdı.

Kliniki və nəzəri oftalmologiyanın bir sıra vacib məsələlərinə həsr olunan yeni və uğurlu tədqiqatların əsasını qoyan Zərifə xanım Əliyeva Azərbaycanda kimya sənayesinin də genişlənməsi və inkişafı ilə bağlı görmə üzvünə kimyəvi maddələrin təsiretmə mexanizminin praktiki olaraq aşkar edilməsi kimi ciddi işlərin də banisidir. Qeyd etmək lazımdır ki, bir sıra ciddi elmi məsələlərlə yanaşı, Zərifə xanım peşə ilə əlaqəli göz xəstəliyi problemlərinə xüsusi maraq göstərmiş, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə böyük diqqət ayırmış, elmi təcrübələr aparmışdır. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir. İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə etdiyi “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərif çiyinlərində xəstələrə sağlamlıq bəxş etmək kimi ağır və bir o qədər məsuliyyətli yük götürmüş Zərifə xanım bütün elmi yaradıcılığı boyu yalnız öz ağlının gücünə arxalanıb, pillə-pillə ucalmışdı. Novator alimin istər tədqiqat əsərləri, istər tərcümələri kitabxanalarımızın parlaq nümunələri sırasındadır. Həcmindən asılı olmayaraq, bütün yaradıcılıq nümunələri, hətta elmi konfrans və simpoziumlardakı dərin mənalı və dolğun məzmunlu çıxışları onun böyük söz ustadı və təkrarolunmaz şəxsiyyət olduğunu bir daha təsdiq etmişdir.

Görkəmli oftalmoloqun yüksək intellekti, prinsipiallığı, öz elmi baxışlarını müdafiə etmək qabiliyyəti, peşəkarlığı, dünyagörüşü, habelə nəcib aurası onun elm aləmində şöhrət və böyük hörmət qazanmasına kömək etmişdir. Öz davranışı, etik hərəkətləri ilə sadə insanlara nümunə olmaqla o, yaddaşlarda məlahətli, ən əsası səmimi insan kimi qalmışdır. Güclü olduğu qədər kövrək qəlbə malik olan bu xanım daim əhatəsində olan hər bir insanın problemləri ilə maraqlanır, qayğısını əsirgəmirdi. O, həmçinin ailə müqəddəsliyini yüksək tutan, Şərq qadınına məxsus incə ruhu ilə ailəsini qoruyan həyat yoldaşı, övladlarına dərin sevgi ilə bağlı olan mehriban və fədakar ana olmuşdur.

Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Heç zaman gərgin işdən usanmamış, ürəklə və ilhamla çalışmışdır. Onun həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi görkəmli oftalmoloqa həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır. Sənətinə sevgisi onu bu sahənin dərinliklərinə varmağa sövq etmiş, gərgin elmi axtarışları bir sıra göz xəstəliklərinə çarə tapılmasına səbəb olmuşdu. Bu, eyni zamanda, alimin özünə şan-şöhrət qazandırmış, elm yollarında akademikliyə qədər yüksəltmişdi. Akademik Zərifə xanım Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıtması və öz dəst-xətti ilə hər zaman seçilməsi də onun fərqliliyindən, qabilliyətindən xəbər verir. Qeyd edək ki, o, həmçinin, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü olmuş ilk oftalmoloq olmuşdur.

İnsanın işıqlı dünyadan məhrum olmaması üçün göz nuruna ehtiyacı var. Zərifə xanım da məhz göz nurunun qorunması üçün çalışırdı. Xəstələr professor Zərifə xanımdan üzlərində təbəssüm, ürəklərində sağalmaq ümidi ilə ayrılırdılar. Tanınmış cərrah xəstəyə tez diaqnoz qoymağa tələsmirdi. İlk növbədə, xəstənin daxili aləmini öyrənməyə çalışırdı. Professorun fikrincə, yalnız belə olduqda düzgün müalicə təyin etmək mümkündür. Xəstənin mənafeyinin həkim üçün hər şeydən üstün olduğunu deyən oftalmoloqun fikrincə, həkim xəstəsi ilə hər zaman xoş rəftarla davranmalı, hər şeyi ona aydın şəkildə izah etməli, mərhəmətli, səbirli olmalıdır. Həkim xəstəliyi olan, müalicə almaq üçün müraciət edən insanlara xəstəliyini başa düşülən dildə anlatmalıdır. Zərifə xanım belə düşünürdü ki, müalicəsinin uğurlu olması üçün həkim ilk növbədə insanların ağrısını hiss etməlidir. “Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir.”

İş yoldaşları da hər zaman vurğulayırlar ki, Zərifə xanım uzaq bölgələrdən gəlib xəstəxanada müalicə alan xəstələrə xüsusi diqqətlə yanaşır, evdən yemək, geyim gətirirdi ki, onlar ailədən uzaqda olduqlarını hiss etməsinlər. Xəstənin daxili aləmini öyrənməyə çalışan akademik xəstənin şikayətini və xəstəliyin başvermə səbəblərini aydınlaşdırmağa çalışırdı. Qeyd etmək yerinə düşər ki, Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur.

Atası Əziz Əliyevin daşıdığı vəzifələrlə əlaqədar müxtəlif coğrafi məkanlarda yaşaması övladlarının başqa xalqların dilini öyrənməsinə, mədəniyyətinə bələd olmasına imkan verirdi. Ailənin daim bir yerdən başqa yerə köçməsi Zərifə xanımın da dünyagörüşünün genişliyinə səbəb olmuşdu. Uşaqlıqdan rus, tatar, özbək, ləzgi, avar dilini və nəğmələrini eşitmişdi. Zərifə Əliyevanın hərtərəfli istedadı incəsənət sahəsində də üzə çıxmışdı. O, fortepiano sinfi üzrə musiqi təhsili almışdı. Həm klassik, həm də populyar musiqini ifa edirdi.

Zərifə xanımın həyatını mənalandıran nə varsa - onun elmi, ailəsi, xeyirxahlığı, insanlara doğma münasibəti - hamısı bu mehriban qadının nurundan şölələnmişdir. Görkəmli alim övladlarına çox bağlı, onların tərbiyəsi üçün bütün enerjisini sərf edən valideyn olmuşdur. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Böyük zəka sahibi olan Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlmişdir. O, hər zaman övladlarına qarşı səmimi olmuş, onlara dost münasibəti bəsləmişdir. Zərifə xanım ömür-gün yoldaşı Heydər Əliyev ilə birlikdə qəlblərində daim Azərbaycan sevgisi yaşayan, vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Zərifə xanım özünə xas olan xeyirxahlıq, alicənablıq, insansevərlik, səmimilik kimi xüsusiyyətlərini övladlarına da ötürmüşdü. Onun təmkinliliyi, səbirliliyi, düzgünlüyü, düşüncəsi, ağlı, savadı və digər müsbət xasiyyətləri övladlarının da onun yolunu getməsinə köməkçi olmuşdu.

Həyat və yaradıcılığı hər bir azərbaycanlı üçün mənəviyyat, kamillik, müdriklik örnəyi olan Zərifə Əliyeva məhz nurlu insanlardan biri kimi milyonların qəlbində yaşayır, dərin ehtiramla, rəğbətlə anılır. Onun xatirəsinə və fəaliyyətinə həsr edilən müsabiqələr təşkil olunur, əsərlər yazılır. Bu gün könül xoşluğu ilə deməliyik ki, Zərifə xanımın ruhu şaddır, çünki onun nəcib əməllərini yaşadan, davam etdirən övladları, nəvələri var. Ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirərək Azərbaycanda Birinci Xanım institutunun daha da möhkəmləndirilməsi üçün çalışır. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanımın xeyriyyəçilik fəaliyyəti bütün addımlarında humanizm prinsipini əks etdirir. Birinci xanım bütün fəaliyyəti boyu, ehtiyacı olan insanlara yardım etməklə, onların sonsuz məhəbbətini qazanır. Mehriban Əliyeva müasir, tolerant, milli-mənəvi dəyərlərimizi yaşadan, eyni zamanda ailəyə bağlı azərbaycanlı qadınıdır. O, özünün ictimai fəallığı və şəxsi örnəyi ilə müasir Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir. Mehriban xanımın fəaliyyəti müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilib, cəmiyyətin həyatında Azərbaycan qadınının rolu haqqında aydın təsəvvür yaradır.

Zərifə Əliyevanın adını əbədiləşdirmək, bu görkəmli qadının xalqımız yolundakı fədakarlığını qiymətləndirmək naminə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də öz növbəsində mütəmadi təlimlər, müsabiqələr, maarifləndirici kampaniyalar həyata keçirir. Komitə tərəfindən eyni zamanda hər il müxtəlif müsabiqələr, intellektual oyunlar təşkil olunur. Bu cür yarışların keçirilməsində məqsəd gənc dostlarımızın, məktəblilərin belə ziyalıların, alim və ictimai xadimlərin həyat və yaradıcılığını öyrənmələri, onlardan nümunə götürmələridir. Hər il olduğu kimi bu il də Zərifə xanımın ildönümünə həsr olunmuş respublika üzrə “Qələbəyə doğru” intellektual yarış keçirilir. 29 mart - 19 aprel 2016-cı il tarixlərində 9 regionda Azərbaycanın bütün şəhər və rayonlarını təmsil edən komandaların iştirakı ilə regional seçim turları keçirilmiş, seçim turlarında fərqlənən 12 komanda final yarışında iştirak hüququ qazanmışdır. Əgər gənclər bu gün böyük bir Azərbaycan xanımının tarixi missiyası, həyat və fəaliyyəti haqqında yazılar yazırsa, deməli, Zərifə xanım kimi bir akademikin, alimin xatirəsi daim yaşayır və yaşayacaqdır.

**Hicran HÜSEYNOVA,**
**Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor.**